## Baltik ölkələrində fındıq bazarının tədqiqatı

Baltik ölkələrinin fındıq bazarları bir-birinə çox bağlıdır, bunu əsas səbəbi istehlakçı olan qənnadı fabriklərinin mürəkkəb holdinq strukturuna malik olması və xammalı bir dəfəyə iki, bəzən isə üç ölkə üçün alması və beləliklə satınalma xərclərinin optimallaşdırılmasıdır. Oxşar vəziyyət həmçinin pərakəndə qoz-fındıq ticarəti ilə məşğul olan kommersiya firmalarında izlənilir, onların satış həcmləri bütövlükdə regionda satış statistikasını əks etdirir. Bu səbəbdən tədqiqata hər üç ölkə üzrə məlumatlar daxil edilmişdir.

Baltik ölkələrində sənaye fındığının əsas istehlakçıları qənnadı fabrikləridir. Bu fabriklər fındığı qənnadı məmulatlarının istehsalı üçün istifadə edərək son istehlakçıya satırlar. Bu səbəbdən tədqiqatda həmçinin fabriklər nəzərə alınıb.

Region ölkələrinin makroiqtisadi göstəricilərinin 2018-ci il boyu fasiləsiz artımını nəzərə alaraq, fındığın satış perspektivlərinin 2019-2020-ci illərdə 2018-ci ildəki səviyyədən, təxminən 1700-1800 ton həcmdə olması proqnozlaşdırılır, eyni zamanda bazar oliqopol növlü qalacaq (oliqopoliya – bazarın elə bir növüdür ki, bu cür bazarlarda sadəcə bir neçə dominant şirkət fəaliyyət göstərir. Bu şirkətlərin hər biri bazarın əhəmiyyətli payını tutur və qiymətlərin yaranmasına təsir edə bilir). Həmçinin nəzərə almaq lazımdır ki, püstə istisna olmaqla, Baltik ölkələrin pərakəndə bazarı qoz-fındıq üçün prioritet xarakterli sayılmır. Əsas səbəb isə qiymət amili ilə bağlıdır.

İstifadə olunmuş informasiya mənbələri və məlumatlar:

- Sorğu və əsas istehlakçılarının hesabatları;
- Gömrük həmçinin ərzaq və sanitariya xidmətlərinin məlumatları;
- Rəsmi statistika.